# NAXÇIVAN MUXTAR RESPUBLİKASININ NAZİRLƏR KABİNETİ

## Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin “Naxçıvan Dövlət Universiteti Xəstəxanası” publik hüquqi şəxsin yaradılması və “Naxçıvan Dövlət Universitetinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 may tarixli 94 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” 2019-cu il 6 iyul tarixli 90 nömrəli Qərarında dəyişiklik edilməsi və “Naxçıvan Dövlət Universiteti Xəstəxanası” publik hüquqi şəxsin göstərdiyi ödənişli xidmətlərdən daxil olan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” 2021-ci il 3 fevral tarixli 32 nömrəli Qərarının ləğv edilməsi barədə**

“Naxçıvan Dövlət Universitetinin yenidən təşkili və Nizamnaməsinin təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2024-cü il 2 may tarixli 239 nömrəli Qərarına uyğun olaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. “Naxçıvan Dövlət Universiteti Xəstəxanası” publik hüquqi şəxsin yaradılması və “Naxçıvan Dövlət Universitetinin ştat cədvəli”nin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2018-ci il 24 may tarixli 94 nömrəli Qərarında dəyişiklik edilməsi barədə” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2019-cu il 6 iyul tarixli 90 nömrəli Qərarının 2-ci hissəsi ləğv edilsin.

2. “Naxçıvan Dövlət Universiteti Xəstəxanası” publik hüquqi şəxsin göstərdiyi ödənişli xidmətlərdən daxil olan vəsaitdən istifadə Qaydası”nın təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2021-ci il 3 fevral tarixli 32 nömrəli Qərarı ləğv edilsin.

3. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “6” mart 2025-ci il

№ 17